**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# UBCCE nümayəndə heyəti Avropa Birliyinin komissarları ilə görüşmüşdür

*ATİB Baş katibi Rəşad Rəsullu Azərbaycanla Avropa Birliyi ölkələri arasındakı viza məsələsini gündəmə gətirmişdir*

**No: 09/14/93**
**30.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) Baş katibi Rəşad Rəsullu Qara dəniz və Xəzər dənizi İş Adamları Konfederasiyaları Birliyinin (UBCCE) nümayəndə heyətinin tərkibində Avropa Birliyinin əsas strukturlarının yerləşdiyi Brüssel şəhərində keçirdiyi işgüzar görüşlərdə iştirak etmişdir.

UBCCE prezidenti Atanes Lavidasın rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Birliyinin enerji məsələləri üzrə komissarı Andris Piebalqs, Avropa Qonşuluq Siyasəti və Xarici Əlaqələr üzrə komissarı Benita Ferrero-Valdner, Ticarət komissarının müavini Katerina Vend, Avropa Birliyi İqtisadi və Sosial Komissiyasının (EESC) vitse-prezidenti İrini Pari, EESC Xarici Əlaqələr Bölməsinin rəhbəri Fillip Hamro-Drotz, “BUSINESSEUROPE” təşkilatının Beynəlxalq Əlaqələr üzrə Direktoru Adrian van den Hoven, Avropa Qonşuluq Siyasəti üzrə Avropa Komissiyasının rəsmisi Robert Soltik ilə görüşlər keçirmişdir.

Avropa Birliyinin enerji məsələləri üzrə komissarı Andris Piebalqs ilə keçirilən görüşdə regiondakı enerji layihələri, o cümlədən Nabucco layihəsi və Avropa Birliyinin enerji siyasəti ətrafında müzakirələr aparılmışdır. Andris Piebalqs qeyd etmişdir ki, Nabucco layihəsi Avropa Birliyinin prioritet layihələri sırasında qalmaqdadır və Avropa İnvestisiya Bankı bu layihəni maliyyələşdirmək üçün vəsait ayırmağa hazırdır.

Avropa Qonşuluq Siyasəti və Xarici Əlaqələr üzrə komissar Benita Ferrero-Valdner ilə görüşdə Avropa Birliyinin regionda olan təşəbbüsləri – Avropa Qonşuluq Proqramı, Şərq Tərəfdaşlığı Proqramı və Qara dəniz Sinerji layihəsi çərçivəsində əməkdaşlıq imkanları müzakirə edilmişdir.

ATİB Baş katibi Rəşad Rəsullu Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti üzrə nümayəndəsi Robert Soltik ilə görüş zamanı ölkəmizlə Avropa Birliyi ölkələri arasındakı viza məsələsini gündəmə gətirmiş və ölkə vətəndaşlarının bu məsələdə üzləşdiyi çətinlikləri Avropa Birliyi rəsmisinin diqqətinə çatdırmışdır. Robert Soltik bu sahədə problemlərin olduğunu etiraf etmişdir: “Bu problemlər təkcə vizanın vaxtında və sürətlə alınmasının təmin edilməsi ilə bağlı deyil. Bilirik ki, bir sıra ölkələrdə Avropa Birliyinin bütün üzv ölkələrinin səfirlikləri yoxdur və məsələn Azərbaycan vətəndaşı Litvaya viza almaq üçün Moskvaya və ya Gürcüstana getmək məcburiyyətindədir. Eyni zamanda, bir sıra ölkələr Avropa Birliyinə və

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

şengen zonasına üzv olduqdan sonra viza prosedurlarını sərtləşdirmişlər”. Robert Soltik onu da bildirmişdir ki, Şərq Əməkdaşlığı Proqramına daxil olan ölkələr üçün (Azərbaycan da bu proqrama daxildir) viza rejiminin yumşaldılması ilə bağlı sazişlər hazırlamaq və tətbiq etmək planları vardır. Robert Soltik təəssüflə qeyd etmişdir ki, bəzi Avropa Birliyi ölkələri təhlükəsizlik və sabitlik baxımıdan Avropa Birliyinə daxil olmayan ölkələrlə viza prosedurlarının sadələşdirilməsinin əleyhinədirlər: “Bu baxımdan viza prosedurlarının sadələşdirilməsi ilə bağlı hazırladığımız bir cox təkliflər qərarverici orqanlar tərəfindən geri qaytarılır”.

Avropa Birliyinin ticarət komissarının müavini Katerina Vend ilə görüşdə Avropa Birliyinin regiondakı ticarət siyasəti müzakirə edilmişdir. Xanım Vend müzakirələr zamanı Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün vacibliyini vurğulamış və Avropa Birliyi olaraq bu prosesə dəstək verməyə hazır olduqlarını bildirmişlər.

Avropa Iqtisadi və Sosial Komissiyasının (EESC) vitse-prezidenti Irini Pari ilə görüş zamanı təmsil etdiyi qurumun funksiyaları və gördüyü işlər; EESC Xarici Əlaqələr Bölməsinin Prezidenti Fillip Hamro-Drotzla görüşdə EESC və UBCCE-nin hansı sahələrdə əməkdaşlıq edə biləcəyi və s. bu kimi ümumi məsələlər müzakirə edilmişdir. BUSINESSEUROPE təşkilatının Beynəlxalq Əlaqələr üzrə Direktoru Adrian van den Hovenlə keçirilən görüşdə dünya iqtisadi böhranı və onun Avropa və dünyaya təsirləri, Avropa Birliyinin regionumuzdakı siyasəti müzakirə mövzusu olmuşdur.

Xatırladaq ki, ATİB-in əsas təşəbbüsçülərindən biri olduğu UBCCE 27 noyabr 2006-cı ildə İstanbulun Çırağan Sarayında Qara dəniz və Xəzər dənizi regionunu təmsil edən 12 ölkənin iş adamlarını təmsil edən 16 təşkilatın iştirakı ilə təsis edilib. Hazırda 17 ölkədən 22 təşkilatın üzv olduğu təşkilatda ATİB UBCCE-nin birinci vitse-prezidenti vəzifəsini həyata keçirir (əlavə informasiya üçün www.ubcce.org saytına müraciət edə bilərsiniz).

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən
ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**